TuranBank

№ 2617
13 may 2026-cı il

TÖVSİYƏ MƏKTUBU

TuranBank ASC olaraq bildiririk ki, FM Consulting MMC ilə əməkdaşlığımız çərçivəsində şirkət özünü peşəkar, etibarlı və yüksək xidmət keyfiyyətinə malik tərəfdaş kimi göstərmişdir.

FM Consulting MMC tərəfindən həyata keçirilən qiymətləndirmə işləri müasir yanaşmalar, bazar analizləri və beynəlxalq qiymətləndirmə standartları əsasında hazırlanaraq yüksək keyfiyyətlə təqdim edilmişdir. Şirkətin əməkdaşları tapşırıqlara məsuliyyətli yanaşmış, operativ qərarvermə və düzgün koordinasiya bacarıqları ilə seçilmişdir.

Əməkdaşlıq müddətində FM Consulting MMC aşağıdakı xüsusiyyətləri ilə fərqlənmişdir:

- təqdim olunan hesabatların peşəkar və əsaslandırılmış şəkildə hazırlanması;
- müraciətlərə çevik və operativ reaksiya verilməsi;
- xidmət prosesində yüksək korporativ etikaya riayət olunması;
- qiymətləndirmə prosesində obyektiv və şəffaf yanaşma;
- müxtəlif həcmli layihələrin vaxtında və keyfiyyətlə icra edilməsi.

Şirkətin göstərdiyi xidmətlər əməkdaşlıq etdiyimiz müddət ərzində etibarlı və stabil nəticələr vermiş, FM Consulting MMC-ni öz sahəsində peşəkar təşkilatlardan biri kimi dəyərləndirməyimizə əsas yaratmışdır.

Bununla əlaqədar olaraq, TuranBank ASC FM Consulting MMC şirkətini qiymətləndirmə və konsaltinq xidmətləri sahəsində etibarlı tərəfdaş kimi tövsiyə edir.

Hörmətlə,

İdarə Heyətinin sədri **Orxan Qarayev**

İ.Qutqaşınlı küç.85, Bakı şəhəri AZ1073, Azərbaycan,
Tel: +994 (12) 510 79 11, 510 79 22, 497 25 11, 497 25 92, Faks: +994 (12) 497 25 77, 510 80 33
E-mail: office@turanbank.az, URL:http://www.turanbank.az